

# Qarabağ: Dağıdıcılıqdan quruculuğa




**Oktyabrın 26-da Azərbaycan növbəti tarixi gün yaşadı. Qarabağ düşmən tapdağından azad olunmasının birinci ildönümündə dünyaya səs salan quruculuq, abadlıq hadisələrinə səhnə olur. Özü də, söhbət irimiqyaslı layihələrdən gedir. Elə layihələrdən ki, yalnız Füzulini, Zəngilanı əhatə etmir, regional xarakterli infrastruktur dəyişiklikləri ilə ifadə olunur. Əslində, "regional" sözü də burada tam yerinə düşmür, çünki görülən, planlaşdırılan işlər qlobal mahiyyət daşımaqdadır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Hava Limanının və bir sıra digər obyektlərin açılışında, təməlqoyma mərasimlərində iştirak etmək üçün 26 oktyabrda birbaşa Ankara – Füzuli reysi ilə respublikamızda səfərdə oldu. Bu, Qarabağdan dünyaya çıxışı olan Füzuli Hava Limanına ilk beynəlxalq uçuş idi. Qardaş ölkənin başçısı Qarabağın hava qapısına gələn ilk yüksək səviyyəli qonaq oldu. "Qonaq" desək də, bu, əslində, bir Vətəndən başqa bir Vətənə gəlmək kimidir. "Hər bir türkün iki Vətəni var: biri öz Vətəni, digəri Türkiyə" – Qazax fikir adamı Mustafa Çokayın vaxtilə, Türkiyədən başqa müstəqil türk dövləti olmadığı zamanlarda dediyi bu anlamlı sözləri, onun ruhunu şad etmək niyyəti və inancı ilə bu gün "Türk dünyası sakinlərinin hər birinin iki Vətəni var: biri öz ölkəsi, digəri başqa bir türk ölkəsi" şəklində ifadə etsək, qüsur sayılmasın. Bu anlamda, Türkiyənin dövlət başçısı və heyəti bir Vətəndən digər Vətəninə gəlmişdi. Bu, gələn nümayəndə heyətinin sevincindən, qürurundan, səmimiyyətindən çox açıq-aydın görünürdü. Görünürdü ki, Qarabağın azadlığından keçən bir il ərzində həyata keçirilmiş böyük işlər bizim qədər qardaş ölkə rəhbərliyini, vətəndaşlarını da məmnun edir, şad edir. Necə ki, biz qardaş ölkə başçısının son bir ildə artıq üçüncü dəfə ölkəmizə səfər etməsindən çox məmnunuq. Məmnunuq ki, bu səfərlər Bakıda, Şuşada, Füzulidə, Zəngilanda tarixi hadisələr, mühüm sənədlərin imzalanması, açılışlar, təməlqoymalarla özünü göstərib.

Dövlət başçımız İlham Əliyevin bir fikrini xatırlamaq yerinə düşər: "Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır." Doğrudan da, həyata keçirilən nəhəng layihələr bizim qardaşlığımızın, birliyimizin gücünü bir daha sübut edir, gücümüzü artırır və bütün dünyaya nümayiş etdirir ki, iqtisadi gücümüz siyasi gücə çevrilib! Və bu güc bölgəyə, bizə qonşu dövlətlərə, Avrasiyaya və bütün dünyaya yalnız hüzur, rifah, əmin-amanlıq vəd edir. Biz savaşlarda olduğu kimi, sülh quruculuğunda da ləyaqət göstərmək xarakterinə malikik. Azadlıq və xeyirxahlıq bizim xarakterimizdir!

Budur, 26 oktyabr səfəri və səfərin proqramı dosta da, dost ola bilməyənlərə də işğalla azadlığın, dağıdıcılıqla quruculuğun, vandallıqla xoş niyyətin, həqiqi sahiblərlə yadellilərin, bir sözlə, şərlə xeyirin fərqini göstərdi. Bir il öncə hərb meydanında şər Ermənistan üzərində zəfər qazanan xeyir Azərbaycan Qarabağa insanlıq, mədəniyyət, quruculuq gətirib! Azərbaycan – Türkiyə qardaşlığı, strateji işbirliyi Qarabağda gülgülüstanlıq yaradır, yollar tikilir, tunellər qazılır, körpülər salınır, hava limanları açılır... İşğalçı Ermənistan və havadarlarının dərin işbirliyi nəyə yarayırdı?
– Yalnız qan tökməyə, ev yıxmağa, yol dağıtmağa, körpü partlatmağa, işıq kəsməyə...

Bəli, düşmən də Qarabağda tunellər qazmışdı. Ancaq onlar hərbi bölmələrin gizlənməsi, Qarabağın azadlığının qarşısını almaq üçün, günahsız insanların qanını axıtmaq üçün idi... Bizim tunellərimiz isə yol infrastrukturunun bir hissəsidir, oradan yüklər daşınacaq, firavanlıq təmin olunacaq, insanlar xoşbəxt yolçuluğa çıxacaq, həsrətlər tez bitəcək, yollar yollara, əllər əllərə, ellər ellərə qovuşacaq... Ümummilli liderimizin bu müdrik "Yol – iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" – sözlərini yolla bağlı hər cümlədə, yazıda xatırlayıram.

Oktyabrın 26-da:

**– Azərbaycan və Türkiyə prezidentləri Füzuli Beynəlxalq Hava Limanının açılışını etdi;**

**– Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular;**

**– Zəngəzur dəhlizinin – Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolunun təməlini qoydular!**

**Bu hadisələr yolsuzlara tarixi cavabdır, yolla yolsuzluğun fərqini dərkə dəvətdir!**

**Yollarımız açıq olsun!**

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***

Xalq qəzeti.- 2021.- 29 oktyabr.- S.3.